**Xocalı qətliamı ilə bağlı çəkilən film artıq hazırdır**

**Türkiyəli rejissor: "Bu filmi çəkmədən dünyadan gedərdimsə, gözlərim açıq qalardı"**

"Xocalı qətliamı. Bu, son olsun!" adlı qısametrajlı filmin təqdimat mərasimi keçirilib. Türkiyənin tanınmış rejissoru Korhan Yurdsevərin lentə aldığı film Azərbaycan-Türkiyə Tarixi Araşdırmalar Fondunun dəstəyi ilə çəkilib. 13 dəqiqəlik qısametrajlı film Türkiyə türkcəsindədir və Azərbaycan türkcəsinə, həmçinin, ingilis və rus dillərinə tərcümə olunub. Filmdə əsasən türkiyəli aktyorlar iştirak ediblər və aktyorlar filmə görə qonarardan imtina ediblər. Qısametrajlı filmin Azərbaycan, Türkiyə və ABŞ telekanallarında da nümayişi nəzərdə tutulur.

Filmin ABŞ, Rusiya və Türkiyədə Xocalı ilə bağlı keçiriləcək tədbirlərdə nümayiş etdiriləcəyini də söyləyən Azərbaycan-Türkiyə İş Adamları Birliyinin baş katibi Rəşad Rəsullu filmlə bağlı hazırlanmış afişaların da müxtəlif şəhərlərdə keçiriləcək nümayişlərdə və mitinqlərdə istifadə ediləcəyini bildirib.

"Xocalı qətliamı. Bu, son olsun!" filmi ilə əlaqədar hazırlanmış xüsusi açıqcalar ABŞ hökumət nümayəndələrinə, Senat və Konqres üzvlərinə göndəriləcək. Film Ümumrusiya Azərbaycanlıları Konqresinin vasitəsilə Rusiyanın Moskva və digər şəhərlərində keçiriləcək tədbirlərdə nümayiş etdiriləcək.

K.Yurdsevər Xocalı faciəsi ilə bağlı film çəkməyin insanlıq borcu olduğunu bildirib: "Xocalıda ermənilərin səkkiz aylıq hamilə qadının qarnını yarıb uşağını çıxardıqlarını və uşağın başını anasının gözü qarşısında kəsdiklərini eşidəndə bu hadisəni bir insanın törədə biləcəyinə şübhə etdim. Bu filmi çəkmək mənim borcum idi. Əgər bu filmi çəkmədən dünyadan gedərdimsə, gözlərim açıq qalardı". K.Yurdsevər Xocalı ilə bağlı tammetrajlı film də çəkiləcəyini, artıq ssenarinin hazırlanmasına başlandığını söyləyib.

"Bu filmdən sonra Türkiyədə çox insanlar papaqlarını masanın üzərinə qoyub daha dərindən fikirləşəcəklər". Türkiyəli rejissor Türkiyənin Ermənistanla sərhədləri açacağı və Azərbaycan torpaqlarının işğalına son qoyulması şərtindən vaz keçdiyinə dair suala cavabında isə Türkiyədə imperialist güclərin təsiri ilə bir sıra yanlış addımlar atıldığını da deyib: "Məncə, Türkiyə prezidentinin İrəvana getməsi gərəkli deyildi. Bu filmin Türkiyə televiziyalarında nümayişindən sonra Türkiyədə bir çox şəxslərin daha diqqətli olacağına inanıram. Türkiyədə "ermənilərdən üzr istəyək" deyən bir sıra insanlar var ki, mən onlara "beyin fahişələri" deyirəm. Xocalı ilə bağlı film artıq həmin insanları narahat etməkdədir".

**V.Məmmədli**

**Ədalət.- 2009.- 26 fevral.- S. 4.**